Tarix və onun problemləri, №4 2009

**BALAYEV A.M.**
*böyük elmi işçi, t.e. n.*

# ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ VƏ ÖLKƏNİN ƏRAZİ BÜTÖVLÜYÜNÜN BƏRPA OLUNMASI SAHƏSİNDƏ GÖRÜLƏN TƏDBİRLƏR (1994-2002-ci illər)

Qarabağ münaqişəsinin həlli və ölkənin ərazi bütövlüyünün bərpa olunması ötən əsrin sonunda-yeni yüzilliyin əvvəllərində də respublika rəhbərliyinin başlıca problemlərindən olmuşdur. Ermənistan Respublikasının 21 ildən bəri davam edən işğalçılıq siyasəti nəticəsində Azərbaycan Respublikasının 20 faiz ərazisi zəbt edilmiş, 20 mindən çox soydaşımız həlak olmuş, 100 mindən artıq insan yaralanmış, 5 min nəfər əlil olmuşdur. Bir milyondan artıq həmvətənimiz qaçqına və məcburi köçkünə çevrilmiş, 4861 nəfər əsir və girov götürülmüş, yüzlərlə yaşayış məntəqəmiz, 6 minədək sənaye və kənd təsərrüfatı müəssisəsi, 4 mindən çox içtimai-mədəni obyekt, o cümlədən 700-ə yaxın məktəb, dağıdılmış, ölkə iqtisadiyyatına 22 milyard ABŞ dolları məbləğində ziyan dəymişdir

İşğal olunmuş Azərbaycan ərazilərindən işğalçı Ermənistan ordusunun dərhal və qeyri-şərtsiz olaraq çıxarılması haqqında BMT TŞ-nın1993-cü il 822 saylı 30 aprel tarixli,1993-cü il 853 saylı 29 iyul tarixli,1993-cü il 874 saylı 14 oktyabr tarixli, 1993-cü il 884 saylı 11noyabr tarixli qətnamələri yerinə yetirilməmişdir [12, № 237(1001), 7 dekabr 1994].

1994-cü il iyul ayında ATƏT-in Parlamentlərarası Assambleyasının Vyana sessiyasısında təşkilatın rəsmisi Yan Eliasson çox obyektiv mövqe tutaraq ilk dəfə «Azərbaycanın işğal edilmiş torpaqları» ifadəsini işlətdi. Beləliklə, Azərbaycan tərəfinin Dağlıq Qarabağ münaqişəsindəki obyektiv mövqeyi özünün yeni mərhələsinə qədəm qoydu, xüsusi yaradılmış Minsk qrupu böyük səylə münaqişənin həll edilməsinə müntəzəm olaraq çalışmağa başladı.

1994-cü ildə Budapeşt sammitində ilk dəfə olaraq ATƏM təşkilat statusu aldı [3, №237(1001), 7 dekabr 1994].) Onun səlahiyyətlərində müəyyən yeniliklər baş verdi. Minsk qrupunun həmsədrlik institutu yaradıldı. Rusiya Federasiyası və Finlandiya bu qrupa həmsədr təyin olundular. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan müzakirələr ATƏT-in zirvə görüşlərində əsas diqqət obyektinə çevrildi.

Keçirilmiş müzakirələrdə ATƏT-in Avropa qitəsində mübahisələrin və münaqişələrin qarşısının alınması, idarə olunması, tənzimlənməsi üçün bütün vasitələrdən istifadə olunmağının vacibliyi də vurğulandı. Budapeşt sammitinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı olan yekun sənədində öz əksini tapdı. «Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin sürətləndirilməsi haqqında», sənəddə qeyd olunurdu ki, ATƏT bölqədəki vəziyyətlə bağlı BMT Təhlükəsizlik Şurasının müddəaları ilə razıdır və onları dəstəkləyir. Digər tərəfdən bu sammitdə Azərbaycan Prezidenti Heydər Əliyev dünyanın bir çox bölgələrində baş vermiş münaqişələrin həllində ayrı-ayrı dövlətlərin inhisarçılıq siyasətini tənqid etdi və ATƏT-in səlahiyyətlərinin gücləndirilməsini təklif etdi [5, №238(1002), 9 dekabr 1994].

Bu sammitdən sonra təşkilat dünyanın siyasi və təhlükəsizlik sistemində mühüm rol oynayan bir qurum kimi yeni mərhələyə qədəm qoydu, sülhməramlı qüvvələrin yaradılması və münaqişəli ərazilərə göndərilməsi qərara alındı. Üç min nəfərlik, çoxmillətli hərbi hissənin yaradılması və Dağlıq Qarabağa göndərilməsi də razılaşdırılmışdı.

Təbiidir ki, bu, Azərbaycan diplomptiyasının Minsk qrupu yanında səmərəli, məqsədyönlü siyasi fəaliyyətinin nəticəsi idi.

1995-ci ilin 3-9 sentyabr Moskva şəhərində Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasına dair danışıqlar keçirildi. Danışıqlar X.Talvitiyedən, V.Lozinskidən, R.Niberqdən, V.Kazimirovdan ibarət tərkibdə ATƏT-in Minsk konfransı rəyasət heyətinin sədrliyi ilə, ATƏT-in icraçı sədrinin nümayəndəsi S.Pşiqodskinin və yüksək səviyyədə planlaşdırma qrupunun başçısı general X.Vilenin iştirakı ilə aparıldı. Danışıqlarda Azərbaycan Respublikasının və Ermənistan Respublikasının nümayəndə heyətləri, Dağlıq Qarabagın Azərbaycan və erməni icmalarının nümayəndələri iştirak etdilər, müzakirələrdə həmsədrlərin fəaliyyətinin gücləndirilməsi vacibliyi bildirildi [19, №176 (1193) 16 sentyabr 1995].

1995-ci ildə ATƏT-in Parlament Assambleyasının Kanadanın paytaxtı Ottava şəhərində keçirilmiş sessiyasında Azərbaycan və Almaniya nümayəndə heyətlərinin birgə səyləri nəticəsində tədbirin yekun sənədində Azərbaycan torpaqlarını zəbt etmiş erməni hərbi qüvvələrinin bu əraziləri dərhal və qeyd-şərtsiz tərk etmələri barədə BMT TŞ-sı tərəfindən 1993-cü ildə qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrin və Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin genişləndirilməsinə dair ATƏT-in 1994-cü il Zirvə görüşünün qərarında ifadə olunmuş ATƏT-in çoxmillətli sülhpərvər hərbi hissələrinin münaqişə bölgəsinə göndərilməsi barəsində qərarının yerinə yetirilməsinin zəruriliyi vurğulanmışdır. Sessiyada Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə ATƏT-in Parlament Assambleyasının «Ottava Bəyannaməsi»ndə ATƏT-in qərar və öhdəliklərini yerinə yetirməyən dövlətlərə qarşı ATƏT-də üzvlüyün dayandırılmasının meyar və prosedurasının işlənib hazırlanması təklifi də öz əksini tapdı [25, str.229-233. 243str].

ATƏT-in Parlament Assambleyasının 1996-cı ildə İsveçin paytaxtı Stokholm şəhərində keçirilmiş sessiyasında nümayəndə heyətimiz Azərbaycanın Dağlıq Qarabağ bölgəsi ətrafında münaqişənin nizamlanması ilə bağlı təkliflər irəli sürmüşdür. Bu təkliflər ATƏT-in Parlament Assambleyasının «Stokholm Bəyannaməsi»ndə öz əksini tapmışdır [25, str. 229-233. 243str.].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində 1996-cı ilin aprelində münaqişənin sülh yolu ilə həll edilməsi haqqında Ermənistan tərəfi ilə birgə imzalanmış «Lüksemburq Bəyannaməsi» xüsusi əhəmiyyət kəsb edirdi. Bu sənəd hər iki ölkənin münaqişəyə baxışda mövqelərinin yaxınlaşmasına təsir etmiş, ən əsası isə 1994-cü ildə əldə olunmuş atəşkəsin qorunub saxlanması haqqında rəsmi razılaşma əldə edilmişdi [8, №76(1345), 23 fevral 1996].

1996-cı ilin iyul ayının 4-də Almaniyanın paytaxtı Bonn şəhərində Azərbaycan Respublikası Prezidentinin nümayəndəsi V.Quluzadə ilə Ermənistan Respublikası Prezidentinin nümayəndəsi J.Leparidyan arasında danışıqların növbəti mərhələsi oldu. Həmin gün Azərbaycan Respublikasının Prezidenti H.Əliyev onları qəbul etdi [10, №128(1397), 6 iyul 1996].

1996-cı ilin avqust ayının 27-28-də Almaniyanın Frankfurt şəhərində Azərbaycan Prezidentinin xarici siyasət məsələləri üzrə dövlət müşaviri V.Quluzadə ilə Ermənistan prezidentinin şəxsi nümayəndəsi J.Leparidyan arasında Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə nizamlanmasına dair birbaşa danışıqların növbəti mərhələsi keçirildi [14, №168(1437), 31 avqust 1996]. Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin 1996-cı ilin oktyabr ayının 1-də Moskvada Ermənistan prezidenti L.Ter-Petrosyanla keçirdiyi görüş də bu baxımdan müsbət əhəmiyyətə malik oldu [9, №190(1459), 2 oktyabr 1996].

ATƏT-in 1996-cı ilin dekabrın 2-3-də keçirilmiş Lissabon sammitinin nəticələri Azərbaycan diplomatiyasının mühüm nailiyyəti oldu [4, №233(1502), 5 dekabr 1996]. Zirvə görüşündə Heydər Əliyevin qətiyyətli mövqeyi və siyasi uzaqgörənliyi sayəsində ATƏT-ə üzv olan 54 ölkədən 53-ü Dağlıq Qarabağ münaqişəsinin həllinə dair qəbul edilmiş Bəyanatında Azərbaycanın ərazi bütövlüyü Prinsipini dəstəklədi. Zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün 3 mühüm prinsip irəli sürüldü: 1) Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınması; 2) Dağlıq Qarabağa Azərbaycan Respublikası tərkibində yüksək dərəcədə özünüidarə statusu-muxtariyyat hüququ verilməsi; 3) Dağlıq Qarabağın bütün əhalisinə təhlükəsizlik təminatı verilməsi. Lissabon Sammitindən sonra Minsk qrupunun işini fəallaşdırmaq üçün ona üç nüfuzlu dövlət – ABŞ, Rusiya və Fransa həmsədrlik etməyə başladı [13, № 235(1504) 7 dekabr 1996].

1997-ci ilin ilk 6 ayı ərzində Minsk qrupunun həmsədrləri «Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş» adlı layihəni hazırlayıb iyunun 11-də hər 2 tərəfə təqdim etdilər. Lakin «layihə»ni nəzərdən keçirməmiş H.Əliyev burada Azərbaycan dövlətinin mənafeyinə uyğun olmayan bəndlərin olduğunu həmsədrlərin diqqətinə çatdırdı [1, f.1]. Sənəd BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan məlum qətnamələrinə əsaslanmamış və hüquqi baxımdan onun icbari səciyyə daşımadığı vurğulanmışdı. İşğal olunmuş ərazilərin boşaldılması, status məsələlərinin dəqiq mexanizmi və konkret zaman çərçivəsinin göstərilməməsi təqdim olunmuş layihənin əhəmiyyətini heçə endirmişdi. Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində təqdim olunmuş «Paket təklif»ini Ermənistan tərəfi qəbul etmədi [1, f.1].

Minsk qrupunun həmsədrləri 1997-ci ilin sentyabr ayının 19-da «Dağlıq Qarabağda silahlı münaqişənin dayandırılması haqqında saziş» adlı ikinci layihəni Ermənistan və Azərbaycan tərəflərinə təqdim etdilər. Həmin layihədə göstərilirdi ki, münaqişə mərhələlərlə aradan qaldırılmalıdır. İlkin mərhələdə Laçın rayonu istisna olunmaqla Dağlıq Qarabağın inzibati hüdudlarından kənarda, Ermənistan tərəfindən işğal edilmiş 6 rayon (Kəlbəcər, Qubadlı, Zəngilan, Ağdam, Füzuli, Cəbrayıl rayonları) işğaldan azad olunmalı, məcburi köçkünlər öz ata-baba yurdlarına qayıtmalı, Ermənistanda və Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsində kommunikasiya vasitələri bərpa olunmalıdır [16, №86(2198), 17 aprel 1999]. İkinci mərhələdə isə Dağlıq Qarabağın statusu məsələsi, habelə Laçın, Şuşa rayonları ilə bağlı olan məsələləri nizamlamaq nəzərdə tutulmuşdu. Əvvəlki layihədən fərqli olaraq indiki «saziş layihəsi»ndə həyata keçiriləcək tədbirlərin dəqiq mexanizmi, konkret zaman çərçivəsi və prinsipləri pozan tərəfə qarşı sanksiyalar tətbiq olunması planlaşdırılmışdı [6, № 044(1081), 23 fevral 2001]. Azərbaycanın mənafeyinə uyğun olmayan bəzi müddəaların mövcud olduğuna baxmayaraq, Azərbaycan tərəfi 1997-ci ilin oktyabr ayının 1-də Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsinin «mərhələli həlli» təklifinin danışıqlara başlamaq üçün əsas olduğunu bildirmişdi. Ermənistan tərəfi də məsələyə müsbət münasibət bildirdi. Həm Ermənistanda, həm də Dağlıq Qarabağda ağır iqtisadi vəziyyət Heydər Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü xarici siyasət nəticəsində dünya dövlətlərinin əksəriyyətinin Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləməsi, Azərbaycana qarşı aparıcı dövlətlərin iqtisadi və siyasi maraqlarının müsbət istiqamətdə dəyişməsi və bunun Ermənistan rəhbərliyi tərəfindən dərk olunması yuxarıda adıçəkilmiş təklifə Ermənistan prezidentinin öz razılığını bildirməsinə səbəb oldu [6, № 044(1081), 23 fevral 2001]. Azərbaycanın və Ermənistanın dövlət başçıları ATƏT-in həmsədrlərinin 1997-ci ilin 19 sentyabr tarixli təkliflərini qəbul etdiklərini, oktyabrın 10-da Strasburqda danışıqları davam etdirmək üçün razılıqlarını bəyan etdilər. Lakin qondarma «Dağlıq Qarabağ Respublikası»nın liderləri məsələyə qəti etirazlarını bildirdilər. Onlar

ATƏT-in Minsk qrupuna Azərbaycan Respublikasının ərazi bütövlüyünə zidd olan təkliflər verdilər ki, bu təkliflər Beynəlxalq Hüquq Normalarına zidd idi [22, №222 (1743), 11 noyabr 1997].

ATƏT-in Minsk qrupunun həmsədrləri Quqasiyanın (qondarma DQR-nin «prezidenti») və L.Ter-Petrosiyanın (Ermənistan prezidenti) təklifləri əsasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin «mərhələli həlli» layihəsini yenidən işlədilər. Hazırlanmış «layihə» 1997-ci ilin dekabr ayının 2-də Azərbaycan və Ermənistan tərəflərinə təqdim olundu. Burada «Dağlıq Qarabağ Respublikası»nın münaqişə tərəfi kimi tanınması təklif olunurdu. Lakin H.Əliyev təklif olunan variantın Azərbaycan xalqının mənafelərinə uyğun olmadığını və danışıqların əvvəlki variant üzrə aparılmasının mümkün olduğunu bildirdi.

1998-ci il noyabrın 9-da əsasən Rusiyalı həmsədrlərin hazırladığı «Ümumi dövlət» adlanan təklif Azərbaycan və Ermənistan tərəflərinə təqdim olundu. ATƏT-in Budapeşt və Lissabon sammitlərinə zidd olan bu təklif paket səciyyəsi daşıyırdı. Təklif olunan «layihə»də Dağlıq Qarabağ ayrıca bir dövlət kimi təqdim olunurdu. Azərbaycan tərəfi təqdim olunan belə bir «ideal» təklifə razı olmadığını bildirdi [6, № 044(1081), 23 fevral 2001]. Bütün bunlardan sonra haqq işi uğrunda mübarizə aparan Azərbaycan Respublikası «qeyri-konstruktiv mövqe tutmaqda» təqsirləndirildi.

H.Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün məsələni dəfələrlə nüfuzlu beynəlxalq təşkilatların müzakirəsinə çıxardı. Bu baxımdan H.Əliyevin BMT-nin 2000-ci ilin sentyabrında zirvə toplantısındakı çıxışı çox böyük maraq doğurmuşdu. Azərbaycan Respublikasının Prezidenti H.Əliyev həmin çıxışında göstərmişdi: «BMT TŞ-nın qəbul etdiyi dörd qətnamədə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı birmənalı şəkildə təsdiqlənmiş və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb etmişdir. Lakin TŞ-nın qərarları 1993-cü ildən bu günə qədər kağız üzərində qalmaqdadır. Təcavüzlərdən, ərazi işğallarından və etnik təmizləmələrdən, təcavüzkar separatizmdən və terrorizmdən əzab çəkən dövlətlər tam hüquqla gözləyirlər ki, BMT ədalətli sülhün və təhlukəsizliyin bərqərar edilməsi və BMT nizamnaməsi prinsiplərinin müdafiəsi üçün maksimum səmərəli təkliflər verəcəkdir».

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ munaqişəsinin sülh yolu ilə həlli H.Əliyevin bütün ölkələrin dövlət başçıları ilə görüşlərində mühüm mövzulardan birincisi olmuşdur. H.Əliyev 1993-2000-ci illərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə həll edilməsi məsələsini ABŞ rəhbərliyi ilə 18, Fransa ilə 16, Rusiya ilə 28, Türkiyə ilə 78 dəfə əsaslı müzakirə etmiş, problemin həll edilməsi üçün mümkün variantlar axtarmışdır [21, № 045 (1082), 24 fevral 2001].

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması istiqamətində ATƏT-in Minsk qrupu 2001-ci ilin fevralında yeni - «üç variantlı layihə» hazırlayaraq Azərbaycan və Ermənistan tərəflərinə təqdim etdi. «Layihə»nin mətni 2001-ci il fevralın 21-də Azərbaycanın mətbuatında nəşr olunub ictimaiyyətə çatdırıldı [23, 2007, s.79]. Eyni zamanda fevralın 23-də Azərbaycan Respublikası Milli Məclisinin iclasında Prezident H.Əliyev də iştirak etdi. İclasda çıxış edən H.Əliyev demişdir: «Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi»adlı olan bu problem azərbaycanlıların öz tarixi vətənlərindən - indiki Ermənistan Respublikası ərazisindən deportasiya olunması, Ermənistan Respublikasının zor tətbiq etməklə yeni ərazilərə sahib olmaq siyasətini həyata keçirmək məqsədi ilə Azərbaycan Respublikasına qarşı silahlı təcavüzü ilə başlanmışdır» [24, №39(23969), 24 fevralə 2001]. Milli Məclisdə qərara alındı ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsi yalnız Azərbaycanın ərazi bütövlüyü

çərçivəsində həll olunmalıdır [17, s.191-211, 542 s.]. Azərbaycan ziyalıları isə bu problemə 2001-ci ilin may ayının 30-da açıq bəyanatla cavab verdilər: «Biz sülh tərəfdarıyıq. Müharibə başlanmasının, qan tökülməsinin əleyhinəyik. Lakin sülhdən daha vacib olan məsələ Vətənimizin əzəli torpaqlarının qaytarılmasıdır. Lazım gələrsə, bu yolda BMT Nizamnaməsinə uyğun olaraq təcavüzkara qarşı güc tərtib edilməsi də istisna olunmamalıdır» [15, № 121(23786), 31 may 2001]. Bütün təzyiqlərə baxmayaraq Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev qətiyyətli mövqe və müdrik siyasət nümayiş etdirmiş, «Dağlıq Qarabağ məsələsi» ilə bağlı Azərbaycanın mövqelərinin dəyişməyəcəyini, bu problemin ölkənin ərazi bütövlüyü çərçivəsində həll olunacağını göstərmişdir.. Prezident Heydər Əliyev 2001-ci ilin mart ayının 4-6-da Paris, 3 aprelində Ki-Uest görüşlərindəki çıxışları bunu sübut edir [2, №74(2787), 4 aprel 2001].

2001-ci ilin aprel ayının 24-27-isində Azərbaycan Respublikasının AŞPA-dakı nümayəndə heyəti tərəfindən Ermənistanın Azərbaycana təcavüzü əks etdirən faktlar sənəd şəklində yayıldı. 9 ölkə və AŞPA-da fəaliyyət göstərən 5 siyasi qrupu təmsil edən 29 nümayəndə tərəfindən «Ermənilər tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımın tanınması» adlı yazılı bəyanat imzalandı [18, 2008, s.155, 672 s.].

2002-ci il noyabr ayının 22-də Çexiyanın paytaxtı Praqa şəhərində Avropa Atlantika Tərəfdaşlıq Şurasının (AATŞ) üzvü olan ölkələrin Zirvə görüşü keçirildi [7, №269 (3281), 22 noyabr 2002]. Görüşdə Azərbaycan Respublikasının Prezidenti H.Əliyev geniş məzmunlu çıxış etdi. H.Əliyev bəyan etdi: «Nə qədər ki, gec deyil, dünya birliyi beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpa olunması əsasında münaqişənin sülh yolu ilə tənzimlənməsi üçün əlindən gələni etməlidir» [11, № 271(3283), 24 noyabr 2002].

Beləliklə, Qarabağ münaqişəsinin həlli və ölkənin ərazi bütövlüyünün bərpa olunması problemləri Azərbaycan Respublikası rəhbərliyinin bir sıra mühüm tədbirlərinə baxmayaraq, Ermənistan tərəfinin, Dağlıq Qarabağ separatçılarının qeyri-konstruktiv mövqeyi və dünya birliyinin əsasən biganə münasibəti nəticəsində özünün müsbət həllini tapmadı. Bu problemlər hal-hazırda da ölkəmizin başlıca qayğı obyektləridir

## *ƏDƏBİYYAT*

1.AMEA TİEA. 3.1.
2.Amerika Birləşmiş Ştatlarının katibi Kolin Pauellin Azərbaycan Respublikasının və Ermənistan Respublikasının prezidentləri ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşündə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Bəyanatı. Ki-Uest şəhəri, 3 aprel 2001-ci il. Azərbaycan №74(2787), 4 aprel 2001.
3.ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt görüşündə. Azərbaycan №237(1001), 7 dekabr 1994.
4.Azərbaycan diplomatiyasının mühüm qələbəsi. Azərbaycan, №233 (1502), 5 dekabr 1996.
5.Azərbaycan diplomatiyasının taleyüklü böyük uğuru // Azərbaycan №238(1002), 9 dekabr 1994.
6.Azərbaycan Prezidenti Heydər Əliyev Avropa İttifaqının nümayəndə heyətini qəbul etmişdir. Respublika № 044(1081), 23 fevral 2001.
7.Azərbaycan Prezidenti Heydər Əliyev Praqa şəhərinə yola düşmüşdür Azərbaycan №269(3281), 22 noyabr 2002.
8.Azərbaycan Prezidenti Heydər Əliyevin Qərbi Avropa ölkələrinə səfəri. Azərbaycan №76(1345), 23 fevral 1996.
9.Azərbaycan Prezidenti Heydər Əliyevin Rusiyaya səfəri. Azərbaycan №190(1459), 2 oktyabr 1996.
10.Azərbaycan Respublikası Prezidentinin mətbuat xidmətinin məlumatı. Azərbaycan, №128(1397), 6 iyul 1996.
11.Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı. Azərbaycan № 271(3283), 24 noyabr 2002.

**12.Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Budapeştdə, ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının görüşündə çıxışı. Azərbaycan № 237(1001), 7 dekabr, 1994.**
13.Azərbaycanın ərazi bütövlüyünün, haqq işinin dünya miqyasında dəstəklənməsi yolunda uğurlu addım, diplomatiyanın mühüm nailiyyəti. Azərbaycan № 235(1504) 7 dekabr 1996.
14.Danışıqların növbəti mərhələsi. Azərbaycan. №168(1437),31 avqust 1996.
15.Ermənistan-Azərbaycan münaqişəsinin həlli yolları haqqında ziyalıların bəyanatı. Xalq qəzeti № 121(23786), 31 may 2001.
16.Heydər Əliyev. Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab C. Klintona. Azərbaycan №86 (2198), 17 aprel 1999.
17.Heydər Əliyev və Azərbaycan Parlamenti. Azərbaycan Respublikası Milli Məclisinin nəşri. Bakı-2003, 542 səh.
18.Hüseynova İradə. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, Çaşıoğlu, 2008, 672 səh.
19.XİN-nin mətbuat mərkəzi xəbər verir. Azərbaycan, №176 (1193) 16 sentyabr 1995.
20.Qurbanov Araz. Vyanada Qarabağdan danışırlar. Azərbaycan № 134(898), 13 iyul 1994.
21.Milli Məclisin 23 fevral tarixli iclasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. Respublika № 045 (1082), 24 fevral 2001.
22.Musayev Vaqif. Azərbaycan Prezidenti Heydər Əliyevin Strasburqa səfəri. Azərbaycan №222 (1743), 11 noyabr 1997.
23.Nəsimli Ə. Qarabağın işğalının iqtisadi nəticələri. Qarabağ dünən bu gün, sabah, Bakı, 2007.
24.Речь Президента Азербайджанской Республики Гейдара Алиева на заседании Милли Меджлиса 23 февраля. Газ. «Бакинский рабочий», №39(23969), 24 февраля 2001 г.
25.Справочник ОБСЕ. Вена Австрия. Декабрь 2000 г., 243 стр.

**А.М.БАЛАЕВ**
*к.и.н.*

**МЕРОПРИЯТИЯ В ОБЛАСТИ РЕШЕНИЯ АРМЯНО-АЗЕРБАЙДЖАНСКОГО НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА И ВОССТАНОВЛЕНИЯ ТЕРРИТОРИАЛЬНОЙ ЦЕЛОСТНОСТИ СТРАНЫ (1994-2002 гг.)**

В статье на основе источников и опубликованной научной литературы рассматриваются основные направления внешнеполитической деятельности руководства Азербайджанской Республики в области решения карабахского конфликта и восстановления территориальной целостности страны в 1994-2002 гг. Особо отмечается роль деятельности Президента Азербайджанской Республики Г.Алиева (1923-2003 гг.) в этой области.

**A.M.BALAYEV**
***Candidate of history***

**ACTIVITIES IN THE FIELD OF ARMENIAN – AZERBAIJAN UPPER QARABAKH CONFLICT RESOLUTION AND THE RESTORATION OF THE TERRITORIAL INTEGRITY OF THE COUNTRY (1994-2002)**

The article based on sources and published literature describes the main areas of foreign policy leadership of the Azerbaijan Republic in the field of the decision of Qarabakh conflict and the restoration of the territorial integrity of the country, 1994-2002. Emphasizes the role of President of Azerbaijan Heydar Aliyev (1923-2003) in this area.

***Rəyçilər: t.e.n.Ə.Qasımov, t.e.d.İ.Zeynalov.***
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycan Respublikası tarixi» şöbəsinin 18 noyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №14).***